2020-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 73750,8 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,8 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,9 faiz artaraq 70471,7 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 95,6 faizini təşkil edir.

2020-ci ilin yanvar ayında muxtar respublikada tikinti sahəsində 8851 nəfər işçi çalışmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 13 faiz artaraq 499,2 manat olmuşdur.